# Peşəkar bədii sənət
## və bədii tənqidimizin formalaşma tarixindən

XX əsrin 20-30-cu illəri Azərbaycan və Rusiya elmi münasibətlərinin inkişafında əhəmiyyətli mərhələ olmuşdur. Bu dövrdə elmi və ictimai əlaqələr xeyli genişlənmiş, Azərbaycanda elmin inkişafı üçün xeyli iş görülmüşdü.

Qeyd etmək lazımdır ki, Azərbaycanda elm və incəsənətin inkişaf etməsində həmin dövrdə Rusiyanın müxtəlif şəhərlərindən - Moskvadan, Leninqraddan, Rostovdan dəvət edilmiş mütəxəssislərin - sənətşünas və tənqidçilərin, aktyor və rejissorların, teatrşünas və kino xadimlərinin az rolu olmamışdur.

Hələ XX əsrin əvvəllərində Azərbaycanda, bəzi istisnalar şərtilə, ictimai-humanitar elmlər şəbəkəsi zəif inkişaf etmişdi. Çar Rusiyasının Azərbaycana qarşı müstəmləkə siyasəti yeritdiyi bir şəraitdə, milli elmin, o cümlədən sənətşünaslıq elminin inkişafı üçün real zəmin yox idi və təbii ki, ola da bilməzdi. Doğrudur, artıq əsrin əvvəllərində ictimai mühitdə müəyyən bir canlanma, inkişaf hiss olunurdu ki, bu da ilk növbədə mətbuatın, mütərəqqi bədii ədəbiyyatın, milli teatr sənətinin formalaşması ilə bağlı idi. Bu inkişaf, təbii ki, tənqidi-nəzəri görüşlərin də tərəqqi etməsinə, mətbuat vasitəsilə cəmiyyətdə yayılmasına kömək edirdi. Bununla belə teatr, yaxud incəsənət tənqidinin inkişafı nisbətən zəif olub, ictimai-siyasi və mədəni proseslərin təkamülü ilə çətinliklə ayaqlaşa bilirdi. Əlbəttə, mütərəqqi bədii ədəbiyyat, teatr, milli musiqi, publisistika,jurnalistika kimi sahələrdə ictimai məzmun qənaətbəxş səviyyədə olsa da, əsasən elmi mahiyyət daşıyan sahələrin inkişafı dövrün tələblərindən dala qalırdı. Azərbaycan bədii mədəniyyətinin, milli musiqinin, teatr sənətinin, təsviri sənətin və digər sahələrin tarixi tədqiqatlardan kənarda qalmışdı. Bu isə, qeyd olunduğu kimi, əsrin əvvəllərində, ictimai elmlərin inkişafı üçün real bazanın olmamasının nəticəsi idi.

Bədii sənətdə əksər hallarda ənənəvi formaların üstünlük təşkil etməsi təkcə XIX əsrdə deyil, XX əsrin əvvəllərində də müşahidə olunurdu. Tanınmış ustad sənətkarlar, misal üçün, Mir Möhsün Nəvvab, ənənələrə uyğun olaraq klassik Şərq üslubunda bədii süjetlər yaradırdılar ki, bu proses XX əsrdə də davam edirdi. Əlbəttə, bədii mədəniyyətin milli köklərə istinad etməsi inkişafdan, beynəlxalq mədəni sərvətlərə inteqrasiya olunmaqdan yan keçmək kimi dəyərləndirilə bilməz. Milli mədəniyyətin qorunub saxlanılması və ənənəvi şəkildə inkişaf etdirilməsi xalqın ümumi mədəni inkişafına heç də mane olmur. Əksinə, milli dəyərlərdən ustalıqla yararlanmaq, müasir dövrdə incəsənətin inkişafına xeyli kömək edə bilər. Digər tərəfdən, artıq XIX əsrin sonu - XX əsrin əvvəllərində ictimai şüurda Avropa mədəniyyəti elementlərinin güclənməsi prosesi Azərbaycan bədii mühitində intensiv şəkil almışdı. Bu baxımdan XX əsrin əvvəllərində Azərbaycan incəsənətində maraqlı bir dualizm - ənənəvi Şərq bədii mədəniyyəti xüsusiyyətləri və Avropa mədəniyyəti xüsusiyyətləri formalaşmış, milli sənətin inkişafına əlverişli şərait yaranmışdı.

Çin, Hindistan, ərəb ölkələri və dünyanın bir çox başqa xalqlarının praktikası sübut edir ki, milli, ənənəvi mədəniyyət elementlərinin qorunub saxlanılması nəinki Avropa sivilizasiyasının yaxşı mənada mənimsənilməsinə mane olmur, əksinə, bu sivilizasiyanın milli bədii mədəniyyətin daha perspektivli inkişafı üçün faydalı ola bilməsinə etibarlı zəmin yaradır. Azərbaycan incəsənətində ümumşərq mədəniyyəti elementlərinin qorunub saxlanılması, bədii mədəniyyətin təkamülünə özünəməxsus formada kömək etmişdir. Bununla yanaşı, göstərmək lazımdır ki, artıq XX əsrin əvvəllərində milli incəsənətdə ictimai məzmun əhəmiyyətli dərəcədə genişlənmiş, sosial xarakter kəsb etmiş, rea-

list teatr sənətimizdə olduğu kimi, cəmiyyətin mədəni həyatında öz mövqeyini möhkəmləndirməyə başlamışdı.

XX əsrin əvvəlləri Azərbaycan teatrının coşqun inkişafı dövrüdür. Bu dövr istedadlı aktyorların teatra gəlişi dövrüdür. Həmin dövrdə Azərbaycanda professional teatr təhsili olmasa da, qüvvətli aktyor ifası teatr sənətinin yüksək nailiyyətlər əldə etməsinə şərait yaratmışdı.

Qeyd etdiyimiz kimi, Azərbaycanda teatr sənətinin inkişafında rus teatr xadimlərinin xidmətləri də olmuşdur. Əsrin əvvəllərində Bakıda və digər şəhərlərdə rus aktyor və rejissor kadrlarının xeyli qismi fəaliyyət göstərirdi ki, bunların da bir çoxu Rusiyanın müxtəlif yerlərindən dəvət olunmuşdu. Tanınmış tədqiqatçı-alim T.Əfəndiyevin 1979-cu ildə nəşr edilmiş "Rus dramaturgiyası və Azərbaycan teatrı" adlı kitabında rus aktyor və rejissorlarının Azərbaycandakı fəaliyyəti ilə bağlı bir çox maraqlı faktlar işıqlandırılmışdır.T.Əfəndiyev teatrşünaslıqda böyük maraq doğuran, lakin az öyrənilmiş məsələləri şərh etmiş, rus sənətkarlarının yaradıcılığını tədqiq etmişdir. Müəllif vaxtilə Azərbaycanda yaşayıb-yaratmış olan Y.A.Bour, S.İ.Valentinov kimi tanınmış rejissorların xidmətlərini xüsusi olaraq qeyd edir. O, həmçinin S.İ.Valentinovun H.Ərəblinski ilə olan dostluğu barədə ictimaiyyətə az bəlli olan faktları üzə çıxarmış, bu dostluğun bilavasitə səhnə ilə əlaqədar olaraq yarandığını və inkişaf etdiyini vurğulamışdır. T.Əfəndiyev göstərir ki, H.Ərəblinski bir neçə dəfə S.İ.Valentinov ilə birlikdə müxtəlif teatr tamaşalarına tərtibat da vermişdir.

Qeyd edək ki, H.Ərəblinskinin S.İ.Valentinov ilə birlikdə hazırlamış olduğu tamaşalar içərisində "Dəmirçi Gavə" əsəri xüsusilə seçilir. Yüksək ictimai məzmuna, sosial amillərlə şərtləndirilmiş dramatik konflikt xəttinə malik olan bu səhnə əsəri geniş xalq kütlələri içərisində böyük əks-səda doğurmuş, vaxtilə bu tamaşa barədə maraqlı fikirlər söylənilmiş və mətbuatda dərc olunmuşdu.

Digər tanınmış rejissor - Y.A.Bour fəaliyyət göstərdiyi müddətdə rus teatrı ilə yanaşı, azərbaycan truppaları ilə də sıx əməkdaşlıq etmişdir. Lakin Y.A.Bourun əsas fəaliyyəti məhz rus teatrı ilə bağlı olmuşdur. Bakıda fəaliyyət göstərən rus teatrının Azərbaycan dramaturgiyasına müraciət etməsində Y.A.Bourun da müəyyən xidmətləri var idi. O, 1911-ci ildə, Bakıda "Nadir şah" pyesini tamaşaya qoymuşdur. Bu tamaşada baş rolda - Nadir şah rolunda bakılı artist - K.O.Şorşeyn oynayırdı.

Göründüyü kimi, rus mədəniyyəti xadimlərinin milli sənətimizin inkişafında müəyyən xidmətləri olmaqla yanaşı, azərbaycan teatrı, öz növbəsində, rus truppalarının repertuar zənginliyinə öz töhfəsini vermiş, onu dram əsərləri ilə xeyli zənginləşdirmişdir. Müasir Azərbaycan teatrşünaslığında bu kimi faktlar nəzərdən qaçırılmamalıdır.

Söyləmək lazımdır ki, XX əsrin birinci iki onilliyində elm, teatr və bədii mədəniyyətin digər sahələrində rus-Azərbaycan əlaqələri ümumən mövcud olsa da, onlar əsasən səthi və qeyri-peşəkar xarakter daşımışdır. Bu isə, söylənildiyi kimi, ictimai-siyasi və sosial səbəblərlə bağlı idi.

Zənnimizcə, əsrin əvvəllərində teatr sənətində realizm prinsiplərinin qüvvətli təsir bağışlaması müəyyən dərəcədə rus teatr məktəbinin qabaqcıl ənənələrinin birbaşa təsiri ilə əlaqədardır. Bu barədə sənətşünaslıqda, teatr tarixində çox deyilmiş və yazılmışdır. Tanınmış ictimai xadim, uzun illər Azərbaycan səhnəsində fəaliyyət göstərmiş rejissor A.Tuqanov qabaqcıl rus dramaturgiyasının Azərbaycan teatrına müsbət təsirini öz xatirələrində dəfələrlə qeyd etmişdir. Rejissor yazır ki, 20-30-cu illərdə realist rus dramaturgiyasının bir çox əsəri Azərbaycan səhnəsində dəfələrlə oynanılmışdır. Bu baxımdan L.Tolstoyun, A.Ostrovskinin, M.Qorkinin əsərləri daha əhəmiyyətli və ibrətamizdir. M.Qorkinin "Həyatın dibində" pyesi, 1925-ci ildə Tuqanovun tərtibatında ilk dəfə olaraq Azərbaycan səhnəsində nümayiş etdirildi. Bu tamaşa istər sənətsevərlərin, istərsə də tənqidçilərin böyük marağına səbəb olmuşdu. Bu və digər tamaşaların təhlilinə yönəlmiş məqalələr tədricən professional, elmi zəmin üzərində qərarlaşan sənətşünaslığın meydana gəlməsinə real şərait yaratmışdı.



Oxşar sözləri kino, musiqi və təsviri sənət sahələri üçün də söyləmək olar. Əgər XX əsrin 20-30-cu illərində Bakıda və respublikanın digər şəhərlərində dərc edilən dövri mətbuat səhifələrinə nəzər salsaq, bədii mədəniyyətin, demək olar ki, bütün sahələrinə dair informativ xarakterli məqalələrə təsadüf edərik. Bu dövrdə sənətşünaslıq bir elm kimi hələ tam formalaşmasa da, bu və digər məqalələrdə onun əsaslı şəkildə inkişaf etməsi və cəmiyyətdə özünü təsbit edə bilməsi faktı artıq göz qabağında idi.

Bədii tənqid, rəssamlıq və başqa sahələrdə İ.İ.Brodski, Y.S.Samorodov və digər mütəxəssislərin məqalələri azərbaycanlı tədqiqatçıların qeyd və mülahizələri ilə yanaşı, sənətşünaslıq elmimizin təməl daşını qoymuşdur. Rusiyalı mütəxəssislərin bir qismi (daha doğrusu, əksəriyyəti) Bakıya 1920-ci ildən sonra gəlmiş olsa da, bəzi mütəxəssislər hələ inqilabdan əvvəl Azərbaycan ictimai və mədəni mühitində öz sözlərini söyləməyə macal tapmışdı. İ.İ.Brodski, Y.S.Samorodov kimi rəssamlar, S.İ.Valentinov, Y.A.Bour kimi rejissorlar, K.O.Şorşeyn kimi aktyorlar hələ inqilabdan xeyli əvvəl Bakıda fəaliyyət göstərmiş və mədəni həyatda müəyyən iz buraxmışdılar.

O zaman hələ gənc rəssam olan İ.İ.Brodski Bakıda məşhur xeyriyyəçi, neft sənayeçisi Hacı Zeynalabdin Tağıyevin şəklini çəkməklə tanınmışdı. Qeyd edək ki, bu rəsm əsəri H.Z.Tağıyevin bilavasitə naturadan işlənmiş olan portretidir. Uzun illər baxımsız qalan və tələf olmaq təhlükəsi ilə üz-üzə dayanan bu tarixi portret əsəri 80-ci illərin sonu - 90-cu illərin əvvəllərində yenidən gündəmə qayıtmış, bərpa edilmişdir. Məhz bu portret əsasında H.Z.Tağıyevin bir çox bədii obrazı yaradılmışdır.

Qeyd edək ki, hələ inqilabdan xeyli əvvəl Bakıda fəaliyyət göstərmiş rus rəssamı və maarifçisi Y.S.Samorodovun burada öz şəxsi emalatxanası və studiyası olmuşdur. Vaxtilə Y.S.Samorodov Bakıda tanınmış və populyar olan rəssamlardan biri idi. O, emalatxananın nəzdində fəaliyyət göstərən bədii studiyada yerli, bakılı gənclərin rəssamlıqla məşğul olmaları üçün müəyyən şərait yaratmışdı. Bəzən Samorodovun emalatxanasında bədii sərgilər də təşkil edilirdi. Həmin sərgilərdən, rəsm əsərlərinin satışından əldə edilən gəlir gənc rəssamların ehtiyaclarına sərf olunurdu.

Əlbəttə, inqilabaqədərki dövr rus-azərbaycan bədii əlaqələri 20-ci illərdəki münasibətlərdən köklü sürətdə seçilir. Bilavasitə elmi potensialın yüksəlməsinə yönəlmiş 20-30-cu illər rus-azərbaycan əlaqələri milli sənətşünaslığımızın meydana gəlməsi prosesində ciddi arqument rolunu oynamışdır. Həmin dövrdə rus-azərbaycan bədii və elmi əlaqələrinin mühüm tərkib hissəsini Rusiyadan dəvət edilmiş tanınmış mütəxəssislərin bilavasitə "yerlərdə" işləməsi təşkil edirdi. Digər hallarda, tanınmış rus sənətşünas və tənqidçiləri, sənət xadimləri, rəssam və musiqiçiləri Azərbaycan bədii mədəniyyətini Moskva və Leninqrad miqyasında təmsil edirdilər. Hər iki hal Azərbaycanda elmin və sənətin sürətlə inkişaf etməsinə müsbət təsir göstərirdi. 20-30-cu illərdə V.Polonski, M.Gerasimov, S.Valentinov, P.Fridolin, M.Svirski, Y.Bour, İ.Rıjenko, N.Maslennikov kimi elm və sənət xadimlərinin fəaliyyəti Azərbaycanda bədii mədəniyyətin və sənətşünaslıq elminin inkişafında mühüm rol oynamışdır. Sənətşünaslığın bir elm kimi təşəkkül tapması, milli kadrlarla yanaşı, məhz bu və ya digər tədqiqatçıların, elm və mədəniyyət xadimlərinin peşəkar fəaliyyəti ilə bağlı olmuşdur.

**Xəzər Zeynalov,**
**sənətşünaslıq namizədi, dosent**

*P.S. Məqalədə aşağıdakı ədəbiyyatdan istifadə edilmişdir:*

- Rüstəmov İ.Ə. Həsənbəy Zərdabi. Bakı, 1969
- Əfəndiyev T.İ. Rus dramaturgiyası və Azərbaycan teatrı. Bakı, 1979
- Əfəndiyev T.İ. Azərbaycan dramaturgiyasında metodlar. Bakı, 2002
- Kərimov İ.S. Azərbaycan peşəkar teatrının tarixi və inkişaf mərhələləri. Bakı, 2002
- Hüseynov İ.H. Azərbaycan milli adət və ənənələrinin bədii-estetik mahiyyəti. Bakı, 2002
- Ağayev R.Ə., Əlizadə A.İ. Bədii xalq yaradıcılığında tarixilik və varislik. Bakı, 2003